# “QURDAĞZI DUASI” POEMASINDA HƏSRƏT YANĞISI

## *“Qurdağzı duası” poemasında həsrət yanğısı "Söhrab Tahirə məktub" qəsidə-poeması əsasında təxmis-poemanın təhlili*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

*(Əvvəli ötən saylarımızda)*

### *II HİSSƏ*

Əvvəlcə "Qurdağzı duası" poemasının yazılma səbəbi ilə bağlı müəllif düşüncələrinə diqqəti çəkmək istərdim: "Adalar okeanların, dənizlərin, göllərin hətta çayların içində yaranmış təbiət abidələridir. Zaman-zaman qabarmalar adaları örtür, başqa sözlə, təbiət adaları sulara qərq edir, dəfn edir. bəzən də əksinə çəkilmələr nəticəsində suların azalması, quraqlıqların sayəsində yeni adalar yaranır və yaxud suya qərq olmuş adalar üzə çıxır. Vaxt ötdükcə, dalğalar adaları döyür, hər tərəfdən qəzəbli dalğaların hücumuna məruz qalan adalar tədricən su üzündə əriyir və məhv olur. Zənnimcə, insan toplumları da belədir.Haqqını-hüququnu itirmiş, müstəqilliyi əlindən alınmış xalqalr da, işğalçı zümrənin zoru altında dəyərlərindən məhrum olur, dilini itirir, varlığına son qoyulur".( Əli Rza Xələfli )

Ona görə də xalqın ziyalı insanları, cəsur, qorxmaz, mərd adamları önə çıxır. Mənsub olduğu xalqın, haqqını-hüququnu qaytarmaq naminə, mübarizələrə qoşulur. Bu yolda dara çəkilməkdən, öldürülməkdən qorxmurlar. Əlirza Nabdil Oxtay adlı şair haqqında illər öncə “Kredo” qəzetində bir yazı oxumuşdum. Həmin dəyərli məqalənin müəllifi, professor İslam Qəribli idi. Müəllif milli heysiyyət uğrunda mübarizə aparan şairin yaradıcılığını təhlil etmiş onun döyüşkən, insanlıq naminə savaş aparan obrazını kamilliklə yaratmışdır. Yadıma gəlir, “Kredo” qəzeti, həmin yazını Əlirza Nabdil Oxtayın belə bir mübariz, Vətən sevgisi ilə dolu misrasını başlığa çəkmişdi: “Məni sən şair elədin, Vətən!”. Sonralar Təbrizdə həbs olunmuş, gənc şairlər Fərid Hüseyn və Şəhriyar Del Gerani haqqında “Kredo” qəzeti baş redaktor Əli Rza Xələflinin maraqlı bir essesini çap etdi. Müəllif, gənc şairlərin azadlığa buraxılmasını tələb edirdi. Və bu zaman yenə, Əlirza Nabdil Oxtayın həmin misrasını başlığa çəkmişdi, amma bu dəfə cuzi fərqlə: “Bizi sən şair elədin, Vətən!”. Doğrudur, bir qədər sonra, gənc şairlər azad olundular. Şübhəsiz, o gənclərin yaddaşında Vətən naminə mübarizələrə qoşulanları nələrin gözlədiyinin şahidi də oldular. Bəli, Əlirza Nabdil Oxtay Vətən uğrunda mücadiləsinə görə, asılmaqla ölüm cəzasına məhkum edildi. Yaxud, Cənubi Azərbaycanda qurulmuş müstəqil Milli hökumətin baş prokururu Firudin İbrahiminin asılmaqla ölüm cəzasına məhkum edilməsi, tarixin yaddaşından heç vaxt silinmiyəcək. Bütün bunların hamısı İrandakı anti-insani rejimin, insana qarşı qəddar münasibətin nəticəsidir. Firudin İbrahiminin günahı nə idi? . O, məşhur “Azərbaycan” məqaləsi ilə bu gün qırx milyonluq azəri türkünün tarixi taleyinə işıq salmışdı. Şübhəsiz, bu azadlıqpərvər gəncin ziyası, zəkası, işığı, düşmənin varlığına qorxu salmışdı.

Bu gün, mübarizələrin mahiyyəti təzədən üzə çıxır. Həyat göstərir ki, xalq asanlıqla haqlarının tapdanmasına görə qəddar rejimi bağışlamır. Yenə, qırx milyonluq azərbaycan xalqı, öz haqqı və hüququ uğrunda mübarizə üçün ayağa qalxmışdır.

Açığı, ədəbiyyat xadimlərinin-şairlərin, yazıçıların, söz-sənət adamlarının dili qadağan olunan, hüquqları tapdanan xalqa dayaq durmaq üçün qələmə sarılmaları təqdir olunmalıdır. Biz, Azərbaycan prezidentinin qırx milyonluq soydaşımızın dil hüququnun tanınmaması ilə barışa bilmərik, - fikrinə tərəfdarıq.

Şair Əli Rza Xələflinin “Qurdağzı duası” poemasını bu yolda çox mühüm bir addım hesab edirəm. Müəllif əsər boyu tərrənnüm etdiyi obrazı, yəni Vətəni və Vətənin rəmzi olaraq, xalq şairi, Söhrab Tahiri yad edərək, ona müraciətlə düşüncələrini mübariz poetik əhvalla qələmə alır. O, əsər boyu yüksək poetik pafosu, emosianal duyğulanmaları öz əsərinin əsas məziyyəti kimi qoruyub, saxlayır. Hətta, yeri gələndə Qarabağda baş vermiş soyqırımları da xatırladır, Xocalı faciəsini də diqqətə çəkir:

Bir yara var, göynəmində əvəz olar hər fəryada,
İllər ötə, zaman dönə, yaddan çıxmaz bu dünyada.
Unudulmaz qan gölləri, onlar ilə bir sırada;
Kəsilməyən kişnərtidir Xocalıdan gələn səda,
Zaman-zaman bu səs qalar körpələrin qulağında.

Burada, "kəsilməyən kişnərti" ifadəsi diqqəti çəkir. İslam tarixində məşhur bir “əhvalat” tez-tez moizələrdə yada salınır. Xəndək davasında gənc cəngavər Əli İbn Əbu Talib təcrübəli döyüşçü Əbdavudla qarşılaşmalı olur. Əbdavud atını cövlana gətirərək, xəndəkdən sıçradır, özünə bərabər döyüşçü istəyir. Bu zaman, gənc Əli onun meydanına çıxmalı olur. Əbdavuda bir neçə təklif edir, o, heç birini qəbul etmir. Onda deyir ki, gərək atdan düşəsən ikimiz də bərabər savaşaq. Əbdavud gənc qəhrəmanı sartsıtmaq üçün atdan yerə tullanır, və qılıncının bir zərbəsi ilə atın dörd ayağını bir dəfəyə vurub atır. At, aşıb xəndəyə düşür. Yanıqlı-yanıqlı kişnəyir. Sanki bununla demək istəyir ki, mən səhv edib, bu məxluqu xəndəkdən keçirib sənin üstünə gətirmişəm. Al mənim qisasımı bu namərddən. Gənc cəngavər Əli atın qısasını alır. Əbdavudu öldürür. Amma, kəsilməyən kişnərti, harda ki, insanlığa qarşı qəsb var, orda yada düşür. Göründüyü kimi müəllif, Cənubi Azərbaycan yaralarını, bütün göynəmi ilə əsərə gətirdikcə, digər tarixi faciələri təsadüfi xatırlatmır. O, “Kəsilməyən kişnərti” və Xocalı faciəsini yada salmaqla, gələcək nəsillərin yaddaşına tarixi həqiqətləri diktə edir. Müəllif bəzən öz düşüncələrini dəqiq əlamətlərlə ifadə edir. Bununla da oxucunu sanki, bu gün Cənubi Azərbaycanda baş verən hadisələrin mərkəzinə aparır:

Qan içənlər məst içində... badəsinə, bənginə bax,
Saqqalından qan süzülür... fitvasına, dənginə bax.
Allahlığa meydan açan davasına, cənginə bax;
Qandı bitən bu torpaqda, çöllərində rənginə bax,
Çəmənlərdə lalələrə, kollar üstə sumağında!..

Müəllif, din adından istifadə ilə cəmiyyətə qarşı qəddar münasibəti kəskin tənqid edir. Həyat göstərir ki, mənəvi mühiti cəmiyyətdəki davranışı ilə uyğun gəlməyən insanlar, bütövlükdə insanlığa qarşı, qəddar münasibətdən çəkinmirlər. Müəllif nahaq qanları, tökənləri elə, ən böyük Allahsız hesab edir. Allah özünün yaratdığına qarşı belə qəddar ola bilməz axı. Sanki, azərbaycan xalqına qarşı törədilən qanlı cinayətləri yada salır. Çöllərdə-çəmənlərdə bitən lalələrin qan-qırmızı rəngdə olmasını elə axıdılan qanlardan, rəng aldığı ilə bağlayır. Hətta, maraqlıdır ki, burada təbiət obrazlarını çox yerində işlədir. Çəmənlərdə açmış, qırmızı xalıya bənzər, lalələri hamımız görmüşük. Hətta burada, sumax bitkisi də xatırlanır. Sumax kol bitkisidir. Bəzən, sıx kolluqların üstündə qırmızı meyvələr, kənardan baxanda al çarğata bənzəyir. Bir sözlə, müəllif təbiət obrazlarından istifadə ilə fikrini daha da qabarıq verir.

Məlumdur ki, Cənubi Azərbaycan ərazisində təkcə xalqa qarşı qəddar münasibət göstərilmir. Elə, təbiəti də məhv etməklə böyük bir ərazidə yaşayan insanların həyat durumunu çıxılmazlığa düçar edirlər. Məşhur Urmiya gölünü xatırlayaq. Bu ərazilər qədim türklərin məskənidir. İndi göl quruyur. Mövcud İran rejimi gölü xilas etmək üçün heç bir tədbir görmür. Bu da nəticədə böyük ərazilərin boşalmasına, bu yerlərdən insanların böyük köçünə səbəb olur.İndi müəllifi dinləyək:

Duz apardı Urmiyanı... sözlü Səhra deyər can, can,
Türk övladı, türk qızının qələmində sızlar Zəncan,
Burum-burum ah vulkanı bülənd olar ulduzacan;
Büryan olan quzu kimi təndirdədi Azərbaycan,
Necə yağlı tikədir gör, kimlər onun marağında.

Demək, çıxış yolu nədədir. Hər kəs özünün tarixi məkanına-məskəninə sahib olmalıdır. Müəllif bu fikri oxucusuna təlqin üçün Xaqan ifadəsindən istifadə edir. Bu da istər-istəməz, qədim türk tarixini yada salır. Orxon - Yeniseydən üzü bəri keçən tarixdə, qüdrətli türk dövlətləri böyük irs qoyublar. Bu irsin, əsas mahiyyəti dövlətçiliklə bağlıdır. Bir vaxt türklər, tutduqları ərazilərdə xalqlara çox hörmətlə yanaşıblar. O cümlədən farslara da. Ancaq, indi sonuncu yüz illikdə farslar İran ərazisində hakimiyyəti ələ keçirib, türklərə qarşı soyqırım siyasəti yeridirlər. ona görə də, şair Əli Rza Xələfli “Qurdağzı duası” poemasında yaddaşa təsir göstərməyi özünün əsas missiyası kimi diqqətdə saxlayır. İstər-istəməz, biz də müəllifin bu mənəvi mübarizədə mövqeyinin təsir gücünü sözdə gördüyümüz üçün məmnunluq duyuruq.

Torpağına sahib çıxan hökm eləsin Xaqan kimi,
Varlığını dilə versə, qoruyacaq xalqan kimi.
Hünərinə güvənməsə, görünəcək qorqan kimi.
Təpər yoxsa, qəzəb yoxsa, püskürmürsə vulkan kimi,
Oğullarda birlik yoxsa, nə faydası yarağın da.

Müəllif, sanki xalqı oyatmaq üçün elə ifadələr seçir ki, insanların düşüncəsinə təsir göstərsin. İnsanları səfərbər etsin. Tarixi keçmişdən gələn ən yaxşı ənənələrlə onları silahlandırsın. Doğru deyir ki, qalib gəlmək üçün birinci növbədə səfərbər olmaq, birliyə can atmaq lazımdır. Şübhəsiz, birlik olanda məqsədə-mərama yetmək də mümkün olur. Şair şeirdə maraqlı ifadələr işlədir: “Hünərinə güvənməsə, görünəcək qorqan kimi”. Buradakı “qorqan” sözü əkin sahələrinin , mülk yerlərinin ətrafında yalançı insan görkəmi düzəldilir. Güya ki, bununla ərazi vəhşi heyvanlardan, yaxud, quşlardan qorunacaq.

*(Davamı 11-ci səhifədə)*

# “QURDAĞZI DUASI” POEMASINDA HƏSRƏT YANĞISI

## *“Qurdağzı duası” poemasında həsrət yanğısı "Söhrab Tahirə məktub" qəsidə-poeması əsasında təxmis-poemanın təhlili*

*(Əvvəli 10-cu səhifədə)*

Bəli, həmin fiqurlara bəzi yerlərdə “qorqan” deyirlər. düşünürəm ki, belə ifadələrin şeirə gətirilməsi ədəbiyyatda işlədilməsi dilin bazasının qorunmasına xidmət edir. Bir sözlə, “Qurdağzı duası” poeması zəngin dil ehtiyyatına malikdir. Nə qədər ki, əsər tarixilik baxımından maraq doğurur, bir o qədər də, bədii təsvir və ifadə vasitələrinə, eləcə də dil zənginliyinə görə diqqəti cəlb edir. Tam inamla demək olar ki, bu əsər, xalqımızın öz haqqı və hüququ uğrunda mübarizəsi üçün mənəvi stimul olacaq.

Əsərdə kimlik məsələsi xüsusi önəm kəsb edir. Şairin düşüncəsinə görə, hər kəs öz kimliyini birinci növbədə qorumağı bacarmalıdır. Kimlik üçün əsas şərt dildir. Təsadüfi deyil ki, dilimizi varlığımız hesab edirik. Əgər dil yoxdursa, demək varlığımızdan məhrum olmuşuq. Bütün məqamlarda müəllif kimlik məsələsini qabartmaqla Cənubi Azərbaycanda bu məsələnin nə qədər ciddi bir problem olduğunu göstərmək istəyir:

Kimliyini unudanın özülsüzdür binaları,
Göllərindən su çəkilər, uçub gedər sonaları,
Quzulansa qurbanlığa qismət olar xınaları;
Oğul desən... adı oğul olanlar var, anaları,
Daş doğaydı, bir qara daş... gizləyəydi qurşağında.

Çox görmüşük yaddaşlardan köçüb gedən kimsələri,
Zaman atar zibilliyə haqqı güdən kimsələri,
Tamahının qulu olan, özü gödən kimsələri:
Torpaq ilə Vətən ilə alver edən kimsələri ,
Açan olsa görərlər ki, damğası var yançağında.

Vətəninə, dilinə nankor çıxanlar da əsərin əsas qınaq hədəflərindəndir. Məşhur Çingiz Aytmatov “Əsrə bərabər gün” əsərində dilini, kimliyini itirənləri, “Manqurt” adlandırır. Çünki, beləsi nə Vətənini tanıyır, nə də anasını.

Kimliyini itirmək məsələsi insanların şəxsi keyfiyyətləri ilə çox bağlıdır. Bəziləri, pul qazanmaq naminə Vətəninə də xəyanət edir. Bu, ümumi mübarizə fonunda şair üçün xalqın mövcud durumunu yazmaq, əslində həqiqətə sadiq olmaq deməkdir. Müəllif üçün meyar olaraq qəbul etdiyi həqiqətləri yazmaq o qədər də asan deyil. O, bilir ki, hər ötənədə söz deyilməz. Görünür, müəllif əsərinə baş qəhrəman seçərkən, əsas obraz kimi Söhrab Tahiri təsadüfi olaraq qəbul etməyib. Söhrab Tahirin yaşadığı həyat, başına gələnlər, onun əsas məramını ifadə etmək üçün kifayət qədər istinaddır. Müəllif poetik üslubda düşüncələrini davam etdirir:

Bilirəm ki, söz deyilməz yol üstündə hər ötənə,
Bir çinarsan qururunda... boy göstərən tək bitənə,
Göy üzündən xəbər göndər ün çatana, dil yetənə:
Tilov atıb, ov gözləyir neçə namərd bu Vətənə,
Sinə söküb, qan sümürür, parça-tikə caynağında.

Hər doğrunun əzabı var, dil altında yanan közdü,
Dildə yalan şirin olar, aqillər də belə yozdu,
Bir hikməti yada salım Nizamidən qalan sözdü;
Xəncərini çəkən şərin qəsdi ancaq iki gözdü,
Susuz Xeyir neyləsin ki, damlası yox bardağında.

Şair, Əli Rza Xələfli klassik ədəbiyyatı yaxşı bilir. Yeri gəldikcə öz əsərində Nizami, Fizuli, Nəsimi... deyimlərindən ustalıqla yararlanmağa çalışır. Elə təqdim olunan bənddə Nizaminin xatırlanmasına diqqət edək. burada müəllif məşhur “Xeyir və Şər” hekayətini yada salır. Həmin hekayətdə bir-birinə zidd iki insan xarekteri qarşılaşır. Adlarından da göründüyü kimi, bu adamlar əməllərində də Xeyir və Şəri təmsil edirlər. hekayətdə göstərilir ki, Xeyir qarşıda susuz bir çölün gözlədiyindən xəbərsizdir. Ona görə də, su ehtiyyatını saxlamır. Şər qarşıda nələrin olacağından xəbərdardır. Ona görə də su ehtiyyatını saxlayıb. Axır ki, Xeyrin suyu qurtarır, onun bardağında bir damla da su qalmayıb, Şər isə ona su verməyə razıdır. Ancaq, gərək gözlərini versin.

Beləliklə, paxıllığın, həsədin cəmiyyət üçün necə bəlalar gətirdiyini Nizami Şər obrazı ilə göstərir.

Əli Rza Xələfli də “Qurdağzı duası” poemasında insanlığı xeyirə çağırır. Bir-birnə dayaq durmağa səsləyir. Əsərdə poetik fikrin axarı, bizi daha kəskin hadisələrə doğru səsləyir. Bu yerdə müəllif, Söhrab Tahirin “Sonuncu şah” romanını xatırladır. Bu, elə həm də, tarixdəki sonuncu şahı xatırlatmaq deməkdir. Bütün hallarda mübarizənin mahiyyəti dəyərlər uğrunda birliyə çağırışdan ibarətdir. Poetic fikir yenə bizi çağırır:



Axı bu yol hara gedir... zamanların sualında,
"Sonuncu şah" cavab olar dilsiz xalqın bu halında,
Tarix sənə meydan verdi Azadıstan mahalında;
O günlərin şahidisən canlı heykəl timsalında,
"Heyrət, ey büt" nidası var qocanın da, uşağın da.

Neçə qanmaz qabağında borcu bitmir bir qananın,
Təbriz durar salamına dan üzünə oyananın,
Adı bizə bayraq olar öz qanına boyananın;
Vətən üçün oğul doğan halal südlü o ananın,
Abi-kövsər hikməti var çeşməsində, qaynağında.

Qoca tarix Təbrizimə tale yazdı, alaladı,
Hardan gəldi qara günlər, quzuladı, balaladı,
Bəxtin sənə həsrətləri, ümidləri qalaladı;
Anan səni heykəl doğdu, göz yaşıyla cilaladı,
Sinəsində od qaladı, qızdırmağa qundağında.

Mübarizənin savaşın qanlı məqamları qoca tarixin Təbriz səhifəsində daha qabarıq görünür. Müəllif, Təbrizi Qüdrət rəmzi kimi azadlıq uğrunda fədai obrazı kimi təsvir edir. Burada Təbrizin mənəvi fərqli mühitini alaladı sözü ilə nişanlayır. Amma Təbrizində dərdi bitib-tükənmir. Sanki, bu şəhərin dərdləri, quzulayır, balalayır. Təbrizin azadlıq həsrəti həlәki, qalaqlanmış dərdlər kimi üst-üstə yığılır. Şair burada sanki Təbriz obrazı ilə Söhrab Tahir obrazını birləşdirir. Təbrizi də Vətən öz övladı kimi böyüdüb. Söhrab Tahiri də Vətən elə Təbriz sayağı böyüdüb. Söhrab Tahir bir Vətən Məcnunu kimi sevilə-sevilə tərrənnüm olunur. Çox maraqlı bədii lövhələr oxucunu öz cazibəsinə alır. Burada müəllif retorik “Leyli kimdir?” sualından istifadə edir:

Leyli kimdir?.. Məcnun olub səhralarda gəzən bilər.
Eşq əhlini göy üzündən ruhu ilə süzən bilər,
Dil nə deyir danışdıqca mənaları sezən bilər;
Söz dəryası nə dərindir, qəvvas olub üzən bilər.
Dərinlərə üzməyənin inci çıxmaz qarmağında.

Millətinə minnət qoyub, özlərini öyənlər var,
Yerli-yersiz mən-mən deyib, sinəsinə döyənlər var,
Düzü düzdə qoyanlar var, doğruları əyənlər var;
Söhrab Tahir, ummanlardan "üzüb gəldim" deyənlər var,
Necə üzüb, bircə damla nəm də yoxdur balağında.

Dilin, eşqin, Vətənin birləşən məqamları var. Bu düşüncələrin bir-birini tamamlayan məqamları şairin poetik əhvalının emosiyalarının ən yüksək həddini göstərir. Müəllifin düşüncəsinə görə özünə hörmət edən hər hansı bir şəxs ən böyük əməlinə görə belə, millətinə minnət qoymamalıdır. Amma, təəssüf ki, belə məxluqlar tapılır. Xırda bir işdən ötrü özünü qəhrəman hesab edir. Millətinə, Vətəninə minnət qoyur. Beləliklə, bu cür özünü öyənlər Vətənə heç bir yararlı xidmət göstərə bilmirlər. Hətta, belələri Vətən üçün azadlıq uğrunda mübarizədə yola düşmüş daşa çevrilir, kötüyə dönür. Ona görə də elə bir müqəddəslikdir ki, onun uğrunda nə qədr çalışsaq da biz borcluyuq, Vətən borclu deyil.

Müəllif, Söhrab Tahirə müraciətlə belə özündən razı adamları, sərt qınağa məruz qoyur. Həmin özünü öyən şəxsləri Təbriz adlı müqəddəsliyi dərk etməyə, Söhrab Tahir kimi bir mübarizdən güc almağa, ilham almağa səsləyir. Düşünmək olar ki, bu əsəri oxuyan hər hansısa bir rəssam Söhrab Tahirlə Təbrizin rəsmini birgə çəkə bilər. Sanki, Təbriz Söhrab Tahirə bənzəyir, Söhrab Tahir də Təbrizə... Biz də elə bu duyğulanmaları ilə şair Əli Rza Xələflini, qəlbində Təbriz yanğısı olan Söhrab Tahir obrazına doğma bilirik, doğma görürük. Zənnimizcə, bu obraz doğmalığı müəllifə imkan verib ki, Böyük Azərbaycanın həm mənəvi dəyərlərini, həm də tarixi olaylarını xüsusi sevgi ilə təsvir etməkdən, tərənnüm etməkdən yorulmasın. Hər hal da bu mübarizə yolunda səhvlər də var və bu səhvləri də görməyi şair təlqin edir

Öz ağlından gileylənən, olmasa da çox yıxıldıq,
Bir "bəli"nin əvəzinə dedik hələ “yox” yıxıldıq,
Sinəmizi dost əlindən hədəf aldı "ox" yıxıldıq;
Dərs olmadı çəkdiyimiz ac yıxıldıq, tox yıxıldıq,
Nələr gördü gözlərimiz bu taleyin sınağında.

Gün fırlanır səhər, axşam... yorğunları belə yorub,
Dünya şirin alma kimi tamah üstə tələ qurub.
Əli Rzanın özü desin dövran ondan nələr sorub,
Xələfli də yaxşı bilir balıq üstə öküz durub,
Dünya onun buynuzunda... dözümü var hodağın da.

Tarix və təbiət “Qurdağzı duası” poemasında insan obrazı ilə birgə irəliləyir. Həqiqətən, insan tarixdən təcrid deyil, tarix də müəyyən məna-da təbiətlə tamamlanır.

Bu əsər ona görə çox möhtəşəmdir ki, müəllif insan hisslərinin dərinliklərinə vara bilib. İlhamın poetik axarı müəllifi əsər boyu təmin edir. Bu da oxucu və əsər arasında xüsusi bir cazibə yaradır. Düşünürəm ki, bu əsər xüsusi ödülə layiqdir.

Müəllifin, “Qurdağzı duası” poeması müasir ədəbi mühitin hadisəsi sayıla bilər.

***24.02.2026***